

# İqtisadi islahatlar sosial rifahın yüksəlməsinə xidmət edir

**Yalnız bu ilin birinci rübündə Prezident İlham Əliyev tərəfindən əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən 25-dən çox sənəd imzalanmışdır**

"Bizim bütün sahələrdə həyata keçirdiyimiz siyasətin əsasında əhalinin sosial müdafiəsinin gücləndirilməsi, güzəranının yaxşılaşdırılması dayanır" - bu fikri Prezident İlham Əliyev ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı keçirdiyi bütün toplantı, iclas və konfranslarda səsləndirir. Və təbii ki, səsləndirməklə də kifayətlənmir.

Əgər dövlət başçısının xüsusən son illər imzaladığı bütün sərəncam, fərman və digər sənədlərə nəzər salsaq, görərik ki, məzmununa görə onların əksəriyyəti birbaşa və ya dolayısı ilə məhz əhalinin maddi rifahının yaxşılaşmasına xidmət edir. Təsadüfi deyil ki, ötən bu illərdə ölkə üzrə ən çox artımlar əhalinin gəlirlərində, pensiya və sosial müavinətlərin həcmində qeydə alınıb, özü də faizlərlə yox, dəfələrlə! Əhalinin sosial müdafiəsinin gücləndirilməsinin dövlətin hər zaman prioritet məqsədi olduğunu dünya iqtisadiyyatında 2008-ci ildən başlayan və indiyəcən səngiməyən maliyyə böhranına baxmayaraq, Azərbaycanda bu sahədə ardıcıl atılan addımlar, verilən önəmli qərarlar da sübut edir: "İndi dünyada böhran yaşanır. İqtisadi və maliyyə böhranı hələ ki səngiməyib. Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır, ancaq bu böhrandan ən az itkilərlə çıxan ölkələrdən biridir. Bir misal da gətirə bilərəm: neftin qiymətinin 3-4 dəfə düşməsinə baxmayaraq, bu il Azərbaycanda maaşlar və pensiyalar artırılıb". Dövlət başçısının Nazirlər Kabinetinin cari ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında səsləndirdiyi bu sözlər fikrimizin konkret təsdiqidir.

Sözügedən iclasda ölkənin sosial-iqtisadi göstəricilərindən danışan Prezident onu da bildirdi ki, 2016-cı il Azərbaycanda dərin iqtisadi islahatlar ili olacaq. Son aylar imzalanan sərəncamlar, qəbul edilən qanunlar biznes mühitinin yaxşılaşması, ixrac potensialının artması, xarici sərmayənin Azərbaycana cəlb edilməsi, yerli istehsalın stimullaşdırılmasına xidmət edir. Şəffaflığın təmin edilməsi, iqtisadi-maliyyə sektorunda aparıcı ölkələrin təcrübəsinin geniş tətbiqi, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi qarşıya əsas məqsədlərdən biri kimi qoyuldu.

Birinci rübün iqtisadi göstəricilərinin o qədər də müsbət olmadığını qeyd edən dövlət başçısı il ərzində ümumi daxili məhsulun artmasına nail olmağın zəruriliyini, bütün islahatların sosial siyasətə köklənməsinin vacibliyini diqqətə çatdırdı: "Sosial siyasət həmişə prioritet olmuşdur və olacaq. Birinci rübdə atılan addımlar bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşının maraqları bizim üçün hər şeydən üstündür. Bütün iqtisadi islahatlar, bizim uğurlu neft-qaz siyasətimiz də bu məqsədi güdür ki, insanlar daha da yaxşı yaşasınlar".

Ölkə müharibə şəraitində yaşasa da, cəbhə bölgəsində ciddi qarşıdurmalar baş versə də, dövlətimiz ordunu gücləndirməklə yanaşı, iqtisadi islahatları inamla həyata keçirir, sosial sahədə ciddi addımlar atır. Neftin qiyməti 3-4 dəfə aşağı düşsə də, ölkədə büdcədən maliyyələşən bütün qurumlarda maaşlar və pensiyalar 10 faiz artırılıb. Halbuki Azərbaycan kimi neft istehsal edən bir sıra ölkələrin son illərdə iqtisadiyyatı çökmüş, iş yerləri ixtisara salınmış, yüz minlərlə insanın sosial durumu kəskin ağırlaşmışdır.

Azərbaycanda aparılan sosial siyasət elə nizamlanıb ki, bütün islahatlar insanların rifah halının yaxşılaşmasına xidmət edir. Yalnız bu ilin birinci rübündə Prezident tərəfindən əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən 25-dən artıq fərman və sərəncam imzalanmışdır. Fevral ayının 1-dən orta hesabla 10 faiz artan sosial ödənişlər 3,6 milyon nəfəri və ya ölkə əhalisinin 38 faizini əhatə edir. Eyni zamanda əmək pensiyalarının sığorta hissəsi əvvəlki ilin 4 faizlik istehlak qiymətləri indeksinə uyğun artırılmış, bəzi kateqoriyaya aid hərbi qulluqçuların vəzifə maaşlarında artımlarla bağlı hərbi pensiyalar orta hesabla 23 manat artmışdır. Bütün bunların nəticəsində pensiyaların orta aylıq məbləği 190, o cümlədən yaşa görə pensiyanın orta aylıq məbləği 210 manata çatmışdır.

İlin birinci rübü ərzində 112730 ailəyə və ya onların 492 min üzvünə, yeni ölkə əhalisinin 5,1 faizinə ünvanlı dövlət sosial yardımı verilmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə bu yardımdan faydalanan ailələrin sayı 3300 vahid artmış, cari ilin 1 aprel tarixinə hər ailəyə düşən orta aylıq yardım məbləği ötən ilə nisbətən 5,6 faiz çoxalaraq 151 manat olmuşdur.

Amma ünvanlı sosial yardım passiv sosial müdafiə tədbiri kimi yalnız aztəminatlı ailələrin üzvlərinin minimum maddi tələbatlarının ödənilməsi məqsədini güdür və yoxsulluqdan xilas etmək gücünə qadir deyil. Bu istiqamətdə aparılan təhlillər və araşdırmalar göstərir ki, sosial yardım alan ailələrin əksəriyyətinin məşğulluq imkanları mövcuddur. Məsələn, 2016-cı ilin birinci rübündə sosial yardım alan ailələrin 70 faizinin Bakı şəhərindən kənarda pay torpaqları var, yəni onlar əkib-becərməklə müəyyən qazanc əldə edə, güzəranlarını yaxşılaşdıra bilərlər. Eyni zamanda yardım təyin olunmuş ailələrin üzvlərinin 50 faizindən çoxunun yaşı 18-dən yuxarı olan insanlardır. İclasda məlumat verildi ki, belə ailələrin aktiv məşğulluq tədbirlərinə cəlb edilməsi məqsədilə özünüməşğulluq proqramlarına start verilib. Prezidentin Ehtiyat Fondundan ayrılan 6 milyon manat vəsait hesabına ölkə üzrə təqribən 1400 ailənin özünüməşğulluq proqramlarına cəlb olunması təmin ediləcək.

Azərbaycan dövləti ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olmuş şəxslərin və şəhid ailələrinin qayğısına xüsusi həssaslıqla yanaşır. Belə ailələrə son 3 ay ərzində 53 mənzil, 41 fərdi ev verilmiş, 3 min 120 nəfərə protez-ortopedik xidmət göstərilmiş, əlilliyi olan şəxslər 553 əlil arabası və 158 eşitmə aparatı ilə təmin edilmişdir. Əlillərin bərpa mərkəzlərində cari ilin birinci rübündə 1690 əlil bərpa müalicəsi almışdır.

İclasda o fakt da açıqlandı ki, qısa müddətdə məşğulluq orqanlarına 18 minə yaxın yeni vakansiya barədə məlumat təqdim edilmiş, işaxtaran kimi qeydiyyata alınmış şəxslər göndərişlərlə müvafiq işlə təmin olunmuşlar. Ümumiyyətlə, ilin ilk rübündə məşğulluq orqanlarına müraciət edənlərin 33,3 min nəfəri işlə təmin edilmişdir.

Prezident İlham Əliyev də sözügedən iclasda bir daha ölkənin iş qabiliyyətli əhalisi üçün yeni iş yerlərinin yaradılmasının vacibliyini xüsusi qeyd etdi: "İş yerlərinin yaradılması üçün əlavə tədbirlər görüləcək... biz operativ tədbirlər görməklə qısa müddət ərzində 31 min daimi iş yeri yaratmışıq, daha çox dövlət sektorunda. Özəl qurumlara da tövsiyə olundu ki, çalışsınlar ixtisarlara yol verməsinlər. Burada biznesin sosial məsuliyyəti ön plana çıxır. Eyni zamanda əlavə tədbirlərin görülməsi nəticəsində xüsusilə özəl sektorda minlərlə, on minlərlə yeni iş yeri yaradılmalıdır".

Bu il daha bir yeniliyə imza atılacaq: sosial mənzillərin tikintisi proqramının icrasına başlanacaq. Dövlət başçısı bu yeni təcrübənin bəzi ölkələrdə uğurla tətbiq edildiyini bildirdi, buna Azərbaycanda da böyük ehtiyacın və tələbatın olduğunu vurğuladı: "Biz müsbət praktikanı öyrənirik, öyrənmişik. Buna böyük ehtiyac və tələbat var. Sosial mənzillərin tikintisi prosesi yaxın zamanlarda başlanacaqdır".

İclasda Prezident artıq bu sahədə pilot layihələrin icrasına başlanıldığını qeyd etdi. Sabunçu rayonunda icra edilən birinci layihədən vətəndaşlar çox razıdırlar. Sakinlər qəzalı vəziyyətdə olan binalardan müvəqqəti olaraq başqa yerlərə köçürülür, köhnə evlər sökülür, əvəzində müasir binalar tikilir. Sosial layihə kimi icra edilən bu layihənin digər rayonlarda davam etdiriləcəyini dövlət başçısı xüsusi vurğuladı: "Bakının hər bir rayonunda qəzalı vəziyyətdə olan binalar var. Onlar, əlbəttə ki, sökülməlidir və orada yaşayan insanlar ya dövlət, ya da özəl sektor tərəfindən daha yaxşı evlərlə təmin edilməlidirlər. Burada həm dövlət, həm özəl sektor birgə işləyə bilər. Buna nail olmaq üçün sadəcə şərait yaradılmalıdır və yaradılır. Hesab edirəm ki, bu il bu proses çox kütləvi xarakter alacaq. Sosial mənzillərin tikintisi, eyni zamanda qəzalı vəziyyətdəki bu evlərin yerində gözəl, çoxmərtəbəli binaların tikintisi inşaat sektoruna çox böyük təkan verəcəkdir".

İndi dünyada böhran yaşanır. İqtisadi və maliyyə böhranı hələ ki başa çatmayıb. Elə neft ölkələri var ki, milli valyutası bir ildə dollara nisbətən 10 dəfəyə yaxın ucuzlaşmış, ən adi ərzaq məhsullarının qıtlığı yaranmışdır. Azərbaycan dünya iqtisadiyyatının bir parçası olsa da, bu böhrandan ən az itkilərlə çıxan ölkələr sırasındadır. Maaş və pensiyalar artırılır, bütün çətinliklərə baxmayaraq, sosialyönümlü tədbirlər həyata keçirilir, insanların həyat səviyyəsi yüksəldilir, yeni təşəbbüslərin yeni formaları işə düşür. Çünki ölkəmizdə aparılan ciddi və dərin iqtisadi islahatların özülü sosial siyasətə köklənir, iqtisadi islahatlar həyata keçirilərkən əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən layihələrə önəm verilir. Birinci rübün sosial-iqtisadi yekunları bunu bir daha sübut edir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***